

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 211 (21.621)

8 noyabr 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Paolo Centiloninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 7 noyabr tarixli sərəncamları ilə Azərbaycan Respublikasında televiziya və radio sahəsində xidmətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əməkdaşları da vardır.

**Sadiqova Aybəniz Bağır qızı**

"Tərəqqi" medalı,

**Dünyamalıyev Əbülfəz Ağca oğlu**

"Əməkdar jurnalist" fəxri adı,

**Səfərova Adilə Əkbər qızı**
**Zamanbəyov Fəhrad Qılman oğlu**

"Əməkdar mədəniyyət işçisi" fəxri adı,

**Rüstəmova Şəfəq Rüstəm qızı**

"Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmişlər.

## Naxçıvanda "Stomatoloji praktikada multi-dissiplinar yanaşma" mövzusunda elmi-praktik simpozium keçirilib

***Ötən şənbə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin və Azərbaycan İmplantoloq İctimai Birliyinin təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublika Xəstəxanasında "Stomatoloji praktikada multi-dissiplinar yanaşma" mövzusunda elmi-praktik simpozium keçirilib.***

Simpozium başlanmazdan əvvəl iştirakçılar ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini və Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Elmi-praktik simpoziumu giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov bildirib ki, insan amili, onun layiq olduğu səviyyədə yaşamasının təmin edilməsi ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatların mühüm tərkib hissələrindən biridir. Muxtar respublikamızda səhiyyə sisteminin yenidən qurulması, müasir dünya standartlarına uyğunlaşdırılması bu xidməti keyfiyyətcə daha da yaxşılaşdırıb, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması, sağlamlığa mənfi təsir edən amillərin aradan qaldırılması, ana və uşaqların, ahıl vətəndaşların sağlamlığının qorunması işində əsaslı dönüş yaradılıb.



Stomatologiya sahəsində baş verən yeniliklər onu göstərir ki, muxtar respublikada bu sahənin inkişafına, ixtisaslı kadr potensialının artırılmasına lazımi diqqət yetirilir. Kəndlərdə tikilib istifadəyə verilən həkim ambulatoriyalarının hər birində müasir stomatoloji kabinələrin yaradılması da bu mənada xüsusi əhəmiyyət daşıyır.

Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxışında bildirib ki, rəhbərlik etdiyi ali təhsil müəssisəsində Stomatologiya ixtisasının açılması bu sahədə ixtisaslı kadrların hazırlanmasında xüsusi əhəmiyyət daşıyır.

Qeyd olunub ki, Naxçıvan Dövlət Universitetinin Türkiyə universitetləri ilə stomatologiya sahəsində də əlaqələri ilbəil genişlənir. Bu universitetlərlə aparılan tələbə mübadiləsinin kadrların yetişdirilməsinə müsbət təsiri vardır.

Tədbirdə Azərbaycan İmplantoloq İctimai Birliyinin sədri, Bakı şəhərində fəaliyyət göstərən "İmplandent" klinikasının baş həkimi, tibb üzrə fəlsəfə doktoru Cabbar Həsənov ənənəvi Naxçıvan simpoziumları və onların əhəmiyyəti barədə danışıb, "Gündəlik stomatoloji praktikada implantasiyanın zəruri yeri" mövzusunda məruzə edib.

Sonra Samsun 19 May Universitetinin doktorantları Elçin Abbasovun "Diş həkimliyində metalsız keramikalar və dişyonma metodları", Taha Özyürəkin "Kök kanal morfologiyası və endodontik girişin əhəmiyyəti", Naxçıvan Dövlət Universitetinin Əczaçılıq və stomatologiya kafedrasının müəllimi, tibb üzrə fəlsəfə doktoru Rauf Cəfərovun "İmplantasiya əməliyyatını asanlaşdıran amillər", Sankt-Peterburq Hərbi Tibb Akademiyasının doktorantı Gündüz Yaqubovun "Odontogen kistalar və onların müalicəsində klassik və innovativ metodlar" və Culfa rayonunun Əbrəqunus kənd həkim ambulatoriyasının həkim-stomatoloqu Rəşad Xəlilovun "Erkən ortodonik müdaxilələr, gündəlik praktikada rast gəlinən qüsurların breketlərlə müalicəsi" mövzularında məruzələri dinlənilib.

Simpoziumda video-süjetlər, implantasiya prosesindən görüntülər nümayiş etdirilib, müzakirələr aparılıb, suallar cavablandırılıb.

Sonda tədbir iştirakçılarına bukletlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## VII Azərbaycan-Rusiya Regionlararası Forumunda muxtar respublikanın nümayəndə heyəti də iştirak edib

***Bakı şəhərindəki Heydər Əliyev Mərkəzində VII Azərbaycan-Rusiya Regionlararası Forumu keçirilib. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin və Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyinin təşkilatçılığı ilə keçirilən forumda Azərbaycan və Rusiyanın dövlət rəsmiləri, parlament və icra hakimiyyəti orqanlarının nümayəndələri, sənaye, turizm, kənd təsərrüfatı, tikinti, ticarət, konsaltinq, logistika, əczaçılıq, İKT, maliyyə və digər sahələrdə fəaliyyət göstərən sahibkarlar iştirak ediblər. Foruma Rusiyanın 9 subyektindən 250-dən çox, Azərbaycan tərəfdən isə 300-dək olmaqla, ümumilikdə, 600-ə yaxın iştirakçı qatılıb.***

Regionlararası forumda qarşılıqlı hörmət və mehriban qonşuluq prinsiplərinə əsaslanan, ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindən olan Azərbaycan-Rusiya əlaqələrinin strateji səviyyədə olduğu, dövlət başçılarının siyasi-iqtisadi əlaqələrin inkişafına xüsusi önəm verdiyi, prezidentlərin, dövlət rəsmilərinin və iş adamlarının çoxsaylı qarşılıqlı səfərlərinin bu böyük önəmin göstəricisi olduğu vurğulanıb.

Forum ticarət əlaqələrinin inkişafında, iş adamları arasında işgüzar əlaqələrin genişlənməsində, həmçinin yeni əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynadığından tədbirə Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti də qatılıb.

Forumda Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov, muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərindən "Dizayn Holdinq" Kommersiya Şirkətlər İttifaqının, "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətinin, "Nəqşicahan Holdinq" LTD Şirkətlər Qrupunun, "Nur-Qida" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktorları, "Naxçıvan Avtomobil Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətinin və "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının nümayəndələri iştirak ediblər.

Tədbir çərçivəsində ikitərəfli görüşlər zamanı "Nəqşicahan Holdinq" LTD Şirkətlər Qrupunun direktoru "İstochnik" mehmanxanasının və "Dərbənd 2000" turizm şirkətinin rəhbərlərinə Naxçıvan Muxtar Respublikasının turizm potensialı ilə bağlı məlumatlar verib və əməkdaşlıq imkanları barədə müzakirələr aparılıb.

"Əməkdaşlıq körpüsü" adlandırılan forum Azərbaycan ilə Rusiya arasında iqtisadi əlaqələrin geniş spektrini əhatə edən işgüzar diskussiyalar, imzalanan mühüm sənədlər və iş adamlarının faydalı görüşləri ilə əlamətdar olub.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

***Ölkəmizdə həyata keçirilən çoxşaxəli iqtisadi inkişaf strategiyasının əsas məqsədlərindən biri də sənaye məhsulları istehsalı ilə regionların tarazlı inkişafına, o cümlədən yerli istehsal və əmək potensialından səmərəli istifadə etməklə ixracyönümlü hazır məhsul istehsalına nail olmaqdan ibarətdir. Çünki enerji və ərzaq təhlükəsizliyi ilə bərabər, sənaye məhsulu istehsalı da ölkənin iqtisadi təhlükəsizliyinin əsas şərtlərindən biridir.***

## Sənaye məhsulu istehsalı artır

Milli iqtisadiyyatımızın hazırkı dövründə mövcud sənaye imkanlarından maksimum yararlanmaq, dinamik məhsul istehsalında dayanıqlılığı təmin etmək məqsədilə yeni istehsal müəssisələrinin yaradılması qarşıda duran əsas vəzifələrdəndir. Regional inkişafa göstərilən bu diqqət ölkəmizin bütün regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında da sənayenin inkişafına şərait yaradıb. Nəticədə, muxtar respublikada sənayenin müxtəlif sahələrinin inkişaf etdirilməsinə yönəlmiş kompleks tədbirlər bu sahədə müsbət nəticələrin əldə edilməsinə səbəb olub.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2016-cı ilin yanvar-sentyabr aylarında muxtar respublikada 763 milyon 323 min manat həcmində sənaye məhsulu istehsal olunub ki, bu da ötən ilin müvafiq dövründəki göstəricini 2,5 faiz üstələyib.

Sənaye məhsulu istehsalının 96,1 faizi malların, 3,9 faizi isə xidmətlərin payına düşüb. Sənayenin dövlət sektorunda 29 milyon 86 min 500 manatlıq, qeyri-dövlət sektorunda isə 734 milyon 236 min 500 manatlıq məhsul istehsal olunub. İstehsal olunan sənaye məhsulunun 96,2 faizi özəl sektorun payına düşüb.

Məlumatda o da qeyd olunur ki, sənaye sahəsinin inkişafı istiqamətində bank və kredit təşkilatları tərəfindən 2016-cı ilin yanvar-sentyabr ayları ərzində təsərrüfat subyektlərinə 872 min manat həcmində kreditin verilməsi təmin edilib.

Sənayedə istehsalın genişlənməsi ixracın da həcminə müsbət təsir göstərib, cari ilin ilk doqquz ayı ərzində muxtar respublikadan 218 milyon 375 min 800 ABŞ dolları dəyərində sənaye məhsulları ixrac olunub.

## Ötən həftə keçirilən iməciliklərdə 31 min 903 ədəd ağac və gül kolları əkilib

***Muxtar respublikamızın ayrılmaz həyat ritminə çevrilən iməciliklər cari ilin payız mövsümündə də mütəşəkkilliklə davam etdirilir. Belə tədbirlər hesabına qədim diyarımızın təbiəti xeyli zənginləşdirilib. Artıq naxçıvanlılar iməciliklərdə fəal iştirak etməyi özlərinin vətəndaşlıq borcuna çeviriblər.***

Ötən həftə keçirilən iməciliklərdə də mütəşəkkillik müşahidə edilib. Naxçıvan şəhərində keçirilən iməciliklərdə 3680 ədəd meyvə ağacı əkilib. Bu iməciliklərdə həmçinin torpağa 2000 ədəd üzüm kolu basdırılıb.

Həmişə olduğu kimi, bu dəfə də şərurlular iməciliklərdə fəallıqları ilə seçiliblər. Belə ki, onlar 3212 ədəd meyvə ağacı, 81 ədəd həmişəyaşıl ağac, 840 ədəd gül və bəzək kolu əkiblər.

Babək rayonunda iməcilik iştirakçıları 1170 ədəd meşə və 7030 ədəd meyvə ağacları əkməklə rayonun təbiətinin zənginləşdirilməsinə öz töhfələrini veriblər.

Bağlar diyarı Ordubadda da iməciliklər mütəşəkkilliklə keçirilib. Rayonun idarə, müəssisə və təşkilatlarının əməkdaşları bölgə ərazisində 850 ədəd meşə, 1700 ədəd meyvə ağacları, 890 ədəd gül və bəzək kolları əkiblər.

Culfa rayonunda da iməciliklərdə fəallıq müşahidə edilib. Bu el tədbirində 1558 ədəd meşə, 1400 ədəd meyvə, 162 ədəd həmişəyaşıl ağac, 830 ədəd gül və bəzək kolu, 200 ədəd üzüm tingi əkilib.

Kəngərli rayonunda keçirilən iməciliklərdə torpağa 2000 ədəd meyvə ağacı basdırılıb.

Şahbuz rayonunda da bu sayda meyvə ağacları əkilib.

Sərhəd bölgəsi Sədərək rayonunda iməciliklərdə 700 ədəd meşə, 1600 ədəd meyvə ağacı əkilib.

İməciliklərdə, ümumilikdə, 23 min 988 nəfər iştirak edib. 31 min 903 ədəd ağac və bəzək kolları əkilib ki, bunun da 4278 ədədi meşə ağacı, 22 min 622 ədədi meyvə ağacı, 243 ədədi həmişəyaşıl ağac, 2560 ədədi gül və bəzək kolları, 2800 ədədi üzüm kolu olub.

Noyabrın 5-də rayon mərkəzlərində, qəsəbə və kəndlərdə ahıl vətəndaşların həyətlərində təmizlik işləri aparılıb.

**Xəbərlər şöbəsi**

İcmal

# Naxçıvanda əldə olunan nailiyyətlər ümummilli liderin siyasi kursuna dərin sədaqətin və müstəqilliyimizin bəhrələridir

## Ötən ay biz bunun bir daha şahidi olduq

*Sürətlə inkişaf edən, güclənən müstəqil Azərbaycan Respublikası və onun Naxçıvan Muxtar Respublikası ulu öndər Heydər Əliyevin şah əsəridir. Milli inkişaf modelinin banisi olan ümummilli liderimiz dövlətçiliyin ideoloji, siyasi, hüquqi və iqtisadi əsaslarını fundamental elmi-praktik prinsiplər əsasında müəyyənləşdirib. Ulu öndərin Naxçıvana və daha sonra Azərbaycana rəhbərlik etdiyi dövr bütövlükdə xalqın azadlıq, müstəqillik arzularının gerçəkləşməsinə real əsasların yaradılması, dövlət müstəqilliyinin möhkəmləndirilməsi, milli-mənəvi yüksəlişə nail olunması kimi mühüm məqamlarla yadda qalıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında” 2016-cı il 11 oktyabr tarixli Sərəncamına əsasən, müstəqillik bayramımız ölkəmizin hər yerində, o cümlədən Naxçıvan Muxtar Respublikasında geniş şəkildə qeyd edilərkən bu məqamlar xüsusi vurğulanıb, Vətənimiz, müstəqilliyimiz uğrunda canını fəda edən şəhidlərimizin xatirəsi ehtiramla yad edilib.*

Oktyabrın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şəhidlər xiyabanındakı Ana abidəsini, dövlət müstəqilliyimiz və ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olanların məzarlarını və 1918-1920-ci illərdə erməni daşnakları ilə mübarizədə Naxçıvanın köməyinə gələn qardaş türk ordusunun bu torpaqlarda şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək şəhidlərin xatirəsinə ehtiramını bildirib.

Ali Məclisin Sədri Azərbaycanın dövlət müstəqilliyinin banisi, ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül düzüb, müstəqil Azərbaycanın qurucusunun xatirəsini ehtiramla yad edib.

Dövlət Bayrağı Muzeyində keçirilən tədbirdə Ali Məclisin Sədri müstəqilliyimizin iyirmi beşinci ildönümü münasibətilə şəhid ailələrini, veteranları, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasındakı ordu, birləşmə və hissələrinin şəxsi heyətlərini, muxtar respublika əhalisini təbrik edib.

Müstəqillik illərində muxtar respublikamız sürətlə inkişaf edib. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalı 1995-ci ilə nisbətən 56 dəfə artaraq 2015-ci ildə 2 milyard 467 milyon manatdan çox olub. Müqayisə olunan dövrdə sənaye məhsulunun həcmi 100 dəfə, əsas kapitala yönəldilən investisiyalar 312 dəfə, rabitə xidmətlərinin həcmi 112 dəfə, kənd təsərrüfatı məhsulu 10 dəfə, ixracın həcmi 214 dəfə, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı isə 25 dəfə artıb. Bütün bunlara diqqət yönəldən bir sıra beynəlxalq ekspertlər Naxçıvanı regionun sosial-iqtisadi baxımdan sürətlə inkişaf edən cazibə mərkəzi adlandırırlar. Səbəb isə sadədir: inkişaf olan məkanlarda qazanılan nailiyyətlər, tətbiq edilən yeniliklər, insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması, elmə, təhsilə, mədəniyyətin inkişafına göstərilən xüsusi diqqət və qayğı, aparılan genişmiqyaslı islahatlar, müasir dövrün tələblərinə həmahəng olan məqsədyönlü işlər insanların diqqətini cəlb edir, maraq yaradır. Hər kəsi təəccübləndirən digər bir mühüm amil isə bütün bu nailiyyətlərin blokada şəraitində əldə edilməsidir. Ötən ay muxtar respublikaya səfərə gələn xarici diplomatlar, qonaqlar hər fürsətdə bu məqamları xüsusi qeyd ediblər, muxtar respublikanın güclü iqtisadi, turizm potensialına malik olduğunu vurğulayıblar.

Oktyabrın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Avstraliya İttifaqının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ceyms Martin Larsenlə, oktyabrın 10-da Portuqaliya Respublikasının ölkəmizdəki nümayəndəliyinin müvəqqəti işlər vəkili xanım Mariya Joao Lopes Kardoso ilə, oktyabrın 11-də Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Gennadi Axramoviç ilə, oktyabrın 20-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri xanım Kerol Meri Krofts ilə, oktyabrın 27-də “Şöhrət” ordenli, Azərbaycan Respublikasının Xalq artisti, professor, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Tofiq Bakıxanov ilə görüşüb.

Muxtar respublikada kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Bu gün torpaq mülkiyyətçiləri müasir kənd təsərrüfatı texnikaları, mineral gübrələr və suvarma suyu ilə təmin olunur, kənd təsərrüfatının inkişafı üçün kreditlər verilir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, əksər kənd təsərrüfatı məhsullarına olan tələbat yerli istehsal hesabına ödənilir. Əkinçiliyin inkişafında başlıca amillərdən biri məhsuldar toxum sortlarının yaradılmasıdır. Bu istiqamətdə də muxtar respublikada mühüm tədbirlər həyata keçirilir. Hazırda muxtar respublikada taxılçılıqla məşğul olan sahibkarlar keyfiyyətli toxum sortları ilə təmin olunur. Belə ki, bu gün muxtar respublikada ümumi əkin sahəsi 910 hektar olan 5 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir.



Oktyabrın 4-də “Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətində muxtar respublikada toxumçuluq təsərrüfatlarının fəaliyyətinin təşkili və qarşıda duran vəzifələr barədə keçirilən səyyari müşavirədə Ali Məclisin Sədri bu sahənin daha da inkişaf etdirilməsi üçün tapşırıqlar verib.

Həmin gün Ali Məclisin Sədri “Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yaradılan yarma istehsalı sahəsinə də baxıb.

Kənd təsərrüfatının inkişafında, torpaqlardan səmərəli istifadə olunmasında meliorasiya və irriqasiya işlərinin görülməsi də vacib məsələlərdən biridir. Muxtar respublikada bu məsələ daim diqqətdə saxlanılıb, ötən il Babək və Culfa rayonlarının 2200 hektar torpaq sahəsini əhatə edən qapalı suvarma və drenaj şəbəkəsi, o cümlədən “Bərəkət” Toxumçuluq Təsərrüfatı üçün ayrılmış 2 min hektar torpaq sahəsinin 400 hektarında qapalı suvarma şəbəkəsi qurulub. Bu il Babək rayonunun Kültəpə və Kərimbəyli kəndlərinin 600 hektara yaxın torpaq sahəsini əhatə edən yeni suvarma şəbəkəsi yaradılıb. Oktyabrın 22-də Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərini əhatə edən qapalı suvarma şəbəkəsi istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri açılış tədbirində iştirak edib. Həmin gün Ali Məclisin Sədri Kəngərli rayonunun Böyükdüz kəndindəki taxıl əkini sahəsinə gəlib, muxtar respublikada taxıl əkininin gedişi ilə maraqlanıb.

Muxtar respublikamızda ətraf mühitin mühafizəsi sahəsində ardıcıl işlər görülür. Ekoloji tarazlığın qorunması üçün həyata keçirilən bu tədbirlər biomüxtəlifliyin qorunması, yaşıllıqların artırılması, atmosferin mühafizəsi, torpaqların deqradasiyasının qarşısının alınmasına yönəlib. Bu baxımdan muxtar respublikada keçirilən iməciliklər böyük əhəmiyyətə malikdir. Oktyabrın 8-də və oktyabrın 22-də muxtar respublikada keçirilən iməciliklər zamanı yeni üzüm və meyvə bağları salınıb, yaşıllıqlara qulluq göstərilib, səliqə-sahman və təmizlik işləri aparılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri iməciliklərdə iştirak edib, əkin işlərinin davam etdirilməsi, yeni üzüm və meyvə bağlarının salınması barədə tapşırıqlar verib.

Bu gün muxtar respublikada böyük sənaye müəssisələri fəaliyyət göstərir, hər sahədə yeni iş yerləri yaradılır. Hər hansı bir iri müəssisənin istifadəyə verilməsi zamanı həm də kadr məsələləri gündəmə gəlir, hazırlıqlı kadrlara tələbat yaranır. Bu baxımdan texniki sahəni tədris edən təhsil ocaqlarının yaradılması böyük əhəmiyyətə malikdir.

Oktyabrın 10-da Ali Məclisin Sədri Naxçıvan Dövlət Texniki Kolleci üçün yeni tədris kompleksinin açılışında iştirak edib.

Muxtar respublikada dini-mənəvi dəyərlərimiz qorunub saxlanılır, ziyarətgahlar bərpa olunur, məscidlər tikilir, dindarlar üçün lazımi şərait yaradılır. İslamın müqəddəs günləri qeyd olunur, dini dəyərlərə sadiqlik nümayiş etdirilir. Hər il muxtar respublikada mənəvi birlik rəmzi olan Aşura mərasiminin keçirilməsi də bu sahədə görülən işlərin tərkib hissəsi kimi mühüm əhəmiyyətə malikdir. Oktyabrın 12-də Naxçıvan şəhərindəki Cümə məscidində Aşura mərasimi keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Aşura mərasimində iştirak edib.

Bu gün muxtar respublikanın əksər yaşayış məntəqələrində kompleks quruculuq işləri aparılıb. Müstəqilliyimizin bəhrəsi olan bu tədbirlər son illər Culfa və Ordubad rayonlarında da uğurla həyata keçirilib, kəndlər müasir görkəm alıb.

Culfa rayonunda aparılan abadlıq-quruculuq işləri yol infrastrukturunu da əhatə edib. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq oktyabrın 13-də Naxçıvan-Ordubad magistralı - Culfa şəhər və Gülüstan kənd avtomobil yolu yenidənqurma işlərindən sonra istifadəyə verilib.

Oktyabrın 13-də və oktyabrın 28-də Culfa rayonunun Gülüstan və Ordubad rayonunun Baş Dizə kəndlərində yeni məktəb binaları, kənd və xidmət mərkəzləri istifadəyə verilib, Gülüstan kənd içməli su sisteminin açılışı olub.

Muxtar respublikamızda sahibkarlığın inkişafı və yerli istehsalın həcminin artırılması sahəsində ardıcıl tədbirlər görülür. Yaradılan əlverişli şərait, güzəştli şərtlərlə kreditlərin verilməsi şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndlərdə də yeni təsərrüfat sahələrinin yaradılmasına imkan verir. Oktyabrın 13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Gülüstan kəndindəki quşçuluq təsərrüfatının fəaliyyəti ilə maraqlanıb.

Muxtar respublika ümummilli lider Heydər Əliyev yoluna sədaqət göstərərək müstəqilliyimizin möhkəmlənməsinə öz töhfəsini verənlərin, fədakarlıqla çalışanların, öz əməyi ilə digərlərinə nümunə olanların fəaliyyəti daim yüksək qiymətləndirilib. Oktyabrın 14-də – Azərbaycanın dövlət müstəqilliyinin 25-ci ildönümü ərəfəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin “Şöhrət” ordeninin, “Vətən uğrunda”, “Hərbi xidmətlərə görə”, “Tərəqqi”, “Dövlət qulluğunda fərqlənməyə görə”, “İgidliyə görə” və “Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə” medallarının, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarının və vəsiqələrinin təqdimat mərasimi keçirilib.

Oktyabrın 15-də “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində muxtar respublikanın bütün rayonlarından olan 210 arıçı tərəfindən 10 tondan artıq bal, verəmum, çiçək tozcuğu, güləm, arı südü və digər arı məhsullarının çıxarıldığı “Arıçılıq məhsulları – bal festivalı”nda bir daha qədim diyarın ən gözəl nemətlərindən biri iştirakçılara təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri festivalda iştirak edib, Naxçıvan balının sərgi-satışı ilə tanış olub.

Blokada vəziyyətində yaşayan Naxçıvanda vaxtilə bir sıra sahələrdə ciddi geriləmələr qeydə alınsa da, bu gün məhz həmin sahələrdə çox böyük nailiyyətlər əldə olunub. Bir vaxtlar informasiya blokadasında yaşayan qədim diyarda bu gün Naxçıvan televiziyası internet saytı üzərindən yayıma başlayıb. Müstəqilliyin bəhrələrindən biri olan bu mühüm hadisə informasiya blokadasının tamamilə ortadan qaldırılması deməkdir.

Oktyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Muxtar respublikada nəşriyyat işinin müasir tələblər səviyyəsində qurulması diqqət mərkəzində saxlanılır. Bu sahədə görülən işlər çərçivəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində ən müasir çap avadanlıqları alınaraq quraşdırılıb, birliyin maddi-texniki bazası gücləndirilib. Oktyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində quraşdırılan yeni çap avadanlıqlarına baxıb.

Son illər çoxmənzilli ictimai yaşayış binalarının tikilməsi insanların rahatlığını təmin etməklə yanaşı, Naxçıvan şəhərinin arxitektura quruluşunu da zənginləşdirib. Oktyabrın 19-da Naxçıvan şəhərinin Heydər Əliyev prospektində inşa olunan 19 nömrəli yeni ictimai yaşayış binası istifadəyə verilib. Ali Məclisin Sədri bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Naxçıvan şəhərində mövcud yaşayış binalarının yenidən qurulması da davam etdirilir. Bu sahədə görülən işlər çərçivəsində Naxçıvan şəhərinin “İstiqlal” küçəsindəki 93 və 99 nömrəli ictimai yaşayış binaları əsaslı şəkildə yenidən qurulub. Oktyabrın 19-da Ali Məclisin Sədri binalarda görülən işlərlə maraqlanıb.

Naxçıvan müstəqillik illərində böyük inkişaf yolu keçərək özünün ərzaq, enerji təhlükəsizliyi ilə yanaşı, telekommunikasiya sisteminin təhlükəsizliyini də tam təmin edib. Oktyabrın 25-də muxtar respublikada dördüncü nəsil mobil rabitə şəbəkəsinin istifadəyə verilməsi bunun bariz nümunəsidir. Nüfuzlu beynəlxalq informasiya agentliklərinin baş xəbər kimi gündəmə gətirdikləri və həmin agentliklərin milyonlarla oxucusu tərəfindən maraqla qarşılanan bu hadisə muxtar respublikamızın əhalisinin sevincinə səbəb olub.

Türkiyə və Azərbaycan xalqları tarixin bütün dövrlərində hər zaman bir-birinin yanında olublar. Bu gün həmin tarixi varisliyə əsaslanan səmimi münasibətlər sistemi, ulu öndərin ifadə etdiyi kimi, “Bir millət, iki dövlət” tərəfindən uğurla davam etdirilir. Azərbaycanın dost və qardaş Türkiyə ilə əlaqələrinin inkişafında Naxçıvan Muxtar Respublikası da əhəmiyyətli rol oynayır. Ölkələrimiz və xalqlarımız arasında möhkəm tərəfdaşlığa muxtar respublika ilə qardaş ölkənin yaxın bölgələri arasındakı əməkdaşlıq da öz töhfəsini verməkdədir. Oktyabrın 28-də Türkiyə Cümhuriyyətinin yaradılmasının 93-cü ildönümü münasibətilə Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğu tərəfindən rəsmi qəbul təşkil edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov rəsmi qəbulda iştirak edib.

Muxtar respublikada ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının uğurla davam etdirilməsi nəticəsində aqrar-sənaye kompleksi də çox böyük inkişaf yolu keçib. Bu gün daxili bazarın tələbatı yerli istehsal hesabına ödənilir. Hər il yeni müəssisələr fəaliyyətə başlayır, keyfiyyətli və rəqabətədavamlı məhsul istehsal olunur. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, 2016-cı ildə muxtar respublikada 23 yeni istehsal və xidmət sahəsi yaradılıb. Oktyabrın 31-də isə “Naxçıvan Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal sahələri və anbarları istifadəyə verilib. Gələcəkdə muxtar respublikada istehsal olunan məhsulların Naxçıvan brendi ilə xarici bazarlara çıxarılması və tanıdılması da müəssisənin qarşısında duran əsas vəzifələrdən biridir.

*Bu gün blokada vəziyyətində inkişaf nümunəsi göstərən Naxçıvanda ümummilli liderin siyasi kursuna münasibətdə sözlə əməlin, dərin sədaqətlə konkret işin vəhdəti mövcuddur. Qədim yurdda görülən genişmiqyaslı işlər isə müstəqil Azərbaycan dövlətinin milli maraqlarının ən yüksək səviyyədə təmin olunmasına xidmət edir. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və uzunmüddətli dövrə hesablanmış inkişaf strategiyasına əsaslanan sosial-iqtisadi inkişaf siyasətinin yeni mərhələdə müvəffəqiyyətlə icra olunması belə deməyə əsas verir ki, qədim diyarımız bundan sonra da uğurlara imza atacaqdır.*

**Rauf ƏLİYEV**

**Naxçıvan Muxtar Respublikasının əksər kənd yaşayış məntəqələrində kompleks quruculuq işləri aparılıb, yeni sosial obyektlər istifadəyə verilib. Belə yaşayış məntəqələrində inşa olunan binalardan biri də kənd mərkəzləridir.**



# Naxçıvanın kənd mərkəzləri

Müasir dünyada dövlət idarəçiliyi mövzusunda müzakirə edilən əsas məsələlərdən biri də desentrlizasiya, yəni qeyri-mərkəzləşmə prosesinin aparılmasıdır. Termin kimi bizim üçün yeni olsa da, əslində, diqqət yetirdiyimiz zaman bu prosesin muxtar respublikada artıq illərdir ki, həyata keçirildiyinin şahidi oluruq. Fikir olaraq, əsasən, XIX əsrdə fransız mütəfəkkirləri tərəfindən irəli sürülən bu proses həm də müasir liberal idarəçiliyin əsas prinsiplərindən biri hesab edilir. Bu proses mahiyyətcə mərkəzi idarəçiliyin bəzi səlahiyyətlərinin yerli təşkilatların üzərinə qoyulmasını nəzərdə tutur. Başqa sözlə desək, vətəndaşların problemlərinin daha çevik həllinə xidmət edir.

Naxçıvan Muxtar Respublikasında son illər ərzində reallaşdırılan kənd mərkəzləri layihəsini həm mərkəzləşmə, həm də qeyri-mərkəzləşmə modelinin tərkib hissəsi hesab etmək olar. Bu mərkəzlər kəndlərdə və ayrı-ayrı yaşayış məntəqələrində müxtəlif istiqamətlərdə "səpələnmiş" bir neçə vacib strukturu özündə birləşdirməklə vətəndaşın problemlərinin tez bir vaxtda həll olunmasına, zamanına və enerjisinə qənaət etməsinə şərait yaradır. Məsələn, sadə Naxçıvan kəndlisi evinə internet xətti açdırmaq, tibbi xidmət almaq, müxtəlif sənədləri əldə etmək, təsərrüfatındakı mal-qaraya baxacaq baytar həkimi və zəruri dərman preparatlarını tapmaq, kitabxana resurslarından istifadə etmək üçün şəhər və rayon mərkəzinə gəlib-getmək zərurəti duymur. Nəticədə, təsərrüfat işlərinə sərf etməyə daha çox zamanı qalır. Bu, eyni zamanda muxtar respublika paytaxtında, şəhər və rayon mərkəzlərində yuxarıda sadaladığımız funksiyaların həyata keçirilməsinə cavabdeh olan qurumların üzərindəki xidmət yükünün azalmasına, digər funksiyaların daha keyfiyyətli və effektiv həyata keçirilməsinə xidmət edir.

*Kənd mərkəzləri statistik rəqəmlərdə*

Naxçıvanda ilk kənd mərkəzlərinin yaradılması 2005-ci ilə təsadüf edir. 2005-ci ildə Ordubad rayonunun Kotam kəndində kənd mərkəzi üçün bina tikilib, Şərur rayonunun Həmzəli və Babək rayonunun Vayxır kəndlərində kənd mərkəzləri üçün binalar yenidən qurulub. Ümumilikdə, 2005-ci ildən ötən dövr ərzində Naxçıvan Muxtar Respublikasında 4 qəsəbə, 133 kənd mərkəzi istifadəyə verilib.

*Kənd mərkəzləri hansı funksiyaları yerinə yetirir?*

Yaradılan kənd mərkəzlərində cəmləşən qurumlara diqqət yetirək: rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, klub, mədəniyyət evi, statistika otağı və sair.

*Rabitə evi.* Müasir dünyanı rabitəsiz təsəvvür etmək qeyri-mümkündür. Çünki müasir cəmiyyətin mobilliyini təmin edən əlaqə vasitəsi məhz rabitədir. Rabitə insanlar arasında məsafəni, fikirlərin sərhədlərini aradan qaldıran ünsiyyət deməkdir. İnsan sözünün ilk hecasının "ünsiyyət"dən gəldiyini nəzərə alsaq, ünsiyyətsiz insanın mövcudiyyətindən danışmaq yersiz olar. Bu gün rabitə dedikdə təkcə telefon, faks, qəzet, jurnal və sair deyil, həm də internet və yeni texnologiyalar nəzərdə tutulur. Bəs kənd mərkəzlərinin rabitə evlərində hansı xidmətlər göstərilir? Culfa rayonunun Gülüstan kəndində aparılmış abadlıq-quruculuq işləri ilə bağlı qəzetimizdə dərc olunan məlumatdan sitat: "Rabitə evində 384 nömrəlik yeni ATS quraşdırılıb, kəndə 1550 metr fiber-optik kabel xətti çəkilib, poçt xidməti təşkil olunub. Poçt şöbəsində kommunal xidmət haqlarının və digər ödənişlərin aparılması üçün lazımi şərait yaradılıb". Deməli, artıq Culfanın Gülüstan kəndində yaşayanlar nəinki rabitə xidmətlərindən rahatlıqla istifadə etmək, həm də ensiklopedik bir məlumat bazası olan ümumdünya internet şəbəkəsindən əkinçilik və heyvandarlıq sahəsində tətbiq edilə biləcək ən son yenilikləri, texnologiyaları öyrənmək imkanlarına malikdirlər.

*Polis sahə məntəqəsi.* Artıq heç kəsə sirr deyil ki, Naxçıvan Muxtar Respublikası dünyanın ən təhlükəsiz məkanlarından biridir. Burada sabitlik evdə olmayan açıq qapılı mənzillərə, dayanacaqda dayanmış açıq pəncərəli avtomobillərə tez-tez rast gəlinir. Lakin bununla bağlı bircə oğurluq faktı da yoxdur. Cinayətsiz regiona çevrilən Naxçıvanda bu cür sabitliyin təmin edilməsində polisin əvəzsiz rolu var. Hər bir kənd mərkəzində polis məntəqələri təkcə cinayətin qarşısını almaq üçün yox, həm də profilaktik tədbirləri aparmaq üçün yaradılır. Başqa sözlə desək, burada hər hansı cinayətlə o baş verdikdən sonra yox, baş verməmişdən əvvəl mübarizə aparılır.

*Baytarlıq məntəqəsi.* Naxçıvanda baytarlığın inkişafına xüsusi diqqət yetirilməsi bir neçə il öncə kənardan baxan insanları təəccübləndirməyə bilmirdi. Muxtar respublikada iqtisadiyyatın, o cümlədən kənd təsərrüfatının inkişafının təmin edilməsi üçün fundamental işlərə hələ dünyanı bürüyən iqtisadi böhrandan öncə başlanılmışdı. Naxçıvan hələ o zaman öz iqtisadiyyatının yerli prinsiplərini nəzərə almaqla əkinçiliyin və heyvandarlığın inkişafına xidmət edən tədbirləri reallaşdırırdı. Yaradılan baytarlıq məntəqələri muxtar respublikanın kəndlərində heyvandarlığın və quşçuluğun sağlam əsaslarla inkişaf etdirilməsi üçündür. Yəni bu sahələr elmi əsaslarla inkişaf etdirilir və yaxud kəndli xəstə malqarasını müalicə etmək üçün baytar həkimini tapmaqdan ötrü onu qarabaqara izləmir. Nəticədə muxtar respublikada heyvanlar arasında heç bir qorxulu infeksion xəstəlik yoxdur. Əhali sağlam ət və süd məhsulları ilə təmin olunur.

*Kitabxana.* Bir sıra ucqarlarda sovet dövründən qalan kənd kitabxanalarının vəziyyəti gözümüzün qarşısına gəldikcə ürəyimiz sıxılır: kitablar əski qrafika ilə nəşr edilmiş və vərəqləri saralmış şəkildə, nəmişlik və sair. Lakin bu gün kənd mərkəzlərindəki kitabxanaların şəraiti, çap olunmuş ən son elmi və bədii ədəbiyyatlarla təminatı göz oxşayır. Doğrudur, onlardan istifadənin nə qədər səmərəli təşkil olunduğu başqa bir yazının mövzusudur, lakin hər halda dövlət üzərinə düşəni və düşməyəni edib. Təkcə kənd kitabxanalarında saxlanılan kitabların sayına diqqət yetirmək kifayətdir. Babək rayonunun Xəlilli kəndindəki kitabxanada 8442, Şərur rayonunun Dəmirçi kəndindəki kitabxanada 8329, Culfa rayonunun Gülüstan kəndindəki kitabxanada 6555, Saltaq kəndindəki kitabxanada 15000-dən çox kitab saxlanılır. Deməli, mədəni istirahətini təşkil etmək və ya ilkin tədqiqatlar aparmaq istəyən oxucu bunu kənd kitabxanasında da edə bilər.

*İnzibati ərazi dairəsi üzrə nümayəndəlik və bələdiyyə.* Sənədləşmə işlərini aparmaq, yaşayış yerindən arayış almaq insanlar üçün ən yorucu işlərdəndir. Çünki, adətən, bir sənəd üçün mütləq iki-üç qurum arasında ayaq döyməli olursan və bu zəruri, lakin yorucu olan iş sənin kifayət qədər zamanını alır. İndi Naxçıvanın kənd və qəsəbələrində yaşayan insanlar üçün bu iki-üç qurum arasındakı məsafəni kənd mərkəzləri aradan qaldırıb. Heç də təsadüfi deyildir ki, bu xüsusiyyətlərinə görə Naxçıvandakı kənd mərkəzləri Bakıdan gələn dostlarımız tərəfindən kiçik "ASAN xidmət"lər kimi xarakterizə olunur.

*Mədəniyyət evi və klub.* Doğrudur, sovet dövründən sonra klubların və mədəniyyət evlərinin fəaliyyətində ümumi bir sönüklük müşahidə olunur. Məsələn, Youtube kimi geniş bazaya malik videosaytlar meydana çıxandan sonra kənd klubunda hansısa tamaşanı və ya özfəaliyyət qruplarının konsertini kiminsə izləməyə gələcəyi bir az real görünmür. Lakin bu heç də kənd klublarının fəaliyyətinin ləğv edilməsi anlamına gəlməməlidir. Klubların fəaliyyətinin yeni mexanizmləri müəyyənləşdirilməlidir. Məsələn, hələ böyük səhnələrə və televiziyalara iddialı olmayan məktəbyaşlı uşaqların hazırladıqları səhnələri izləməyə ən azından onlarla qürur duymaq üçün valideynləri və yaxın qohumları gələr. Ya da bu gün kəndlərimizdə onlarla rəqs, nəğmə nümunələri var ki, onları heç bir elektron resursdan izləmək, dinləmək mümkün deyil və kənd mərkəzlərində fəaliyyət göstərən klubların səlahiyyətləri də bu nümunələri aşkara çıxara bilər. Elə kənd mərkəzlərindəki klublar və mədəniyyət evləri də bu məqsədə xidmət etməlidir.

***Naxçıvan Muxtar Respublikasının kənd və qəsəbələrində yaradılan bu cür mərkəzlər düşünülmüş maraqlı bir modeldir. Bu şərait bizim üçün – vətəndaşlar üçün yaradılıb və biz bu imkanları maksimum dəyərləndirməli və onlardan yararlanmalıyıq: müstəqilliyimizin bəhrələrindən müstəqilliyimizin möhkəmləndirilməsi və ölkəmizin gələcəyinin daha yaxşı təmin edilməsi üçün.***

Elnur KƏLBİZADƏ

## Şahbuz "Forel" balıqçılıq təsərrüfatı fəaliyyətini genişləndirir

### *"İşgəsu" massivi artıq həm də istirahət üçün gözəl məkandır*

***İcrası uğurla başa çatan "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatına şərait yaradıb. Bu şərait balıqçılıq təsərrüfatının inkişafı üçün də geniş imkanlar açıb. 2009-cu ildə Şahbuz rayonundakı "İşgəsu" massivində "Forel" balıqçılıq təsərrüfatının həyata vəsiqə qazanması həmin imkanlardan səmərəli istifadənin nəticəsidir və muxtar respublikada iqtisadi cəhətdən xeyli gəlirli olan balıqçılığın inkişafına öz töhfəsini verir.***

Bu günlərdə həmin təsərrüfatda olduq. Balıqçılıq təsərrüfatının rəhbəri Nurlan Xəlilov bildirdi ki, Sahibkarlığa Kömək Fondundan 30 min manat kredit götürərək fəaliyyətə başlayıblar. İlk olaraq əraziyə su xətti çəkilib, iki kaptaj vurulub. Hündürlüyü 1 metr 20 santimetr, eni 3, uzunluğu 25 metr olan 10 hovuz tikilib. Bu hovuzlarda ən qiymətli balıq növü olan forel balıqları yetişdirilir. Vaxtında yemlərinin verilməsi, hovuzların təmizliyinin, suyun temperaturunun diqqətdə saxlanması balıqlar arasında itkinin olmaması və vaxtında normal çəkiyə çatdırılması ilə nəticələnib. Sahibkar bildirir ki, forellər, təxminən, 7-8 aya böyüyür, soyuq aylarda bu, bir az sürətlənir. Balıqların normal çəkisi 180-220 qram olur.

Təsərrüfatçı təcrübəsinin nəticəsində balıqların sayı getdikcə artır. Ona görə də hazırda hovuzların sayı 15-ə çatdırılıb. Hovuzlarda 600 mindən çox balıq yetişdirilir. İstehsal edilən məhsulun satışı üçün də heç bir çətinlik yoxdur. Təsərrüfatın Şahbuz şəhərindəki bazarda mağazaları var. Mağazanın qarşısında kiçik hovuz düzəldilib. Bununla da, alıcılara daim burdan təzə balıq ala bilmək imkanı yaradılıb. Naxçıvan şəhərindəki mağazalara isə 900 qram-1 kiloqram çəkidə qablaşdırılaraq verilir.

Burada bir məqama da toxunaq. Balıqçılıq üçün əvvəlcə qonşu ölkələrdən kürülər gətirilirdisə, bu gün artıq buna ehtiyac yoxdur, təsərrüfatın özündə kürü almaq üçün şərait yaradılıb. Bölgənin təmiz havası, suyu burada balıqçılığın inkişaf etdirilməsinə marağı artıran amillərdən biridir. Odur ki, təsərrüfatda çay kənarında eni 20 metr, uzunluğu müxtəlif ölçülərdə olan 6 hovuz tikilib. Bu hovuzlarda sazan, çay balığı, ağ balıq, sudak və karas yetişdirilir. Sazan istehsalını genişləndirmək sahibkarın perspektiv planıdır. Bunun üçün hər cür imkanlar olduğunu bildirən Nurlan Xəlilov deyir ki, hazırda bu hovuzlarda 1 milyondan artıq balıq yetişdirilir. Və bu balıqlar təbii şəkildə qidalanırlar. Hovuzlarda 9 kiloqrama qədər çəkisi olan balıqlar var.

Təsərrüfatda ikinövbəli iş rejimi tətbiq edilib. Ərazidə sanitariya-gigiyena qaydalarına ciddi əməl olunması diqqət mərkəzində saxlanılır. Bütün bunlar yüksəkkeyfiyyətli məhsul istehsalında mühüm rol oynayır.

Bəli, bir vaxtlar qamışların boy verdiyi ərazidə bu gün, sözün əsl mənasında, cənnətməkan yaradılıb. Sazan balıq saxlanan hovuzların ətrafları maili şəkildə daşla hörülüb. İki hovuzun üzərində körpü salınıb. Körpünün üstündə istirahət üçün şərait yaradılıb. Həmçinin hovuzlara enmək üçün pilləkənlər quraşdırılıb. Bu pillələrlə enib suyun içərisində qayıqla gəzmək olar. Suyun ortasında quraşdırılan fəvvarələr, hovuzboyu əkilən rəngbərəng güllər, həmişəyaşıl tinglər, meyvə ağacları insanın ovqatını təzələyən amillərdir.

Ərazini gəzdikcə, yaradılan gözəlliyə baxdıqca qəlbimizi qürur qarışıq sevinc hissləri bürüyürdü. Çünki burada tikilən ikimərtəbəli restoran, restoranın həyətində düzülmüş xalqımıza məxsus qədim məişət əşyaları, uşaqlar üçün əyləncə yerləri, həmçinin müştərilərin istəyinə uyğun sifariş vermək məqsədilə tikilən kiçik, fəvvarəli hovuzda üzən balıqlar, burada restoran üçün bəslənən müxtəlif quşlar dövlət qayğısının təcəssümü, zəhmətin, əməksevərliyin bəhrəsi kimi diqqət çəkir. 3 kiçik villa, 3 taxtadan düzəldilmiş yüksək şəraitli katejlər insanların dincəlməsi üçündür. Havası insana dinclik, sakitlik gətirən söyüd ağaclarının altında düzəldilən, ətrafı həsirlə örtülən 11 yemək yeri, ərazinin baş tərəfində rahatlığı ilə müştəriləri razı salan, yaraşığı, gözəlliyi ilə insanı cəlb edən 4 otaqlı VİP-də yaradılan şərait də valehedicidir.

Söyüd ağaclarının altında açıq havada toy, nişan, ad günləri keçirmək üçün 360 nəfərlik yerin inşa olunması şahbuzlulara böyük töhfədir. Lakin təkcə bu rayondan deyil, elə Naxçıvan şəhərindən də gəlib burada şənlik məclisləri quranlar olur.



Ərazidəki müxtəlif meyvə ağacları – alma, alça, ərik, badam, hətta həmərsin, yemişan, böyürtkən buraya füsunkarlıq bəxş edir. Yaşıllıqda yaradılan bulaqlar, kiçik zooparkda saxlanılan quş və heyvanlar da əraziyə marağı artırır. Burada balaca stadion da tikilib. Üstəlik, qonaqların, turistlərin ehtiyacı olarsa, maşınların yuyulması xidməti də göstərilir.

Şübhəsiz, hər yaradılan sahibkarlıq obyekti həm də əhalinin məşğulluğu baxımından əhəmiyyətə malikdir. Elə burada çalışan 20 nəfər ailəsinin rifahını yaxşılaşdırmaq imkanı qazanıb.

Və yeri gəlmişkən vacib bir məqama da toxunmaq istərdim ki, "İşgəsu" massivindəki balıqçılıq təsərrüfatının ətrafında görülən işlər, yaradılan istirahət guşəsi böyük təbiət abidəsi olan Şahbuzun turizm potensialının genişləndirilməsində də özünəməxsus rol oynayır. Buraya xüsusən yay aylarında respublikanın müxtəlif bölgələrindən, eləcə də xarici ölkələrdən gəlib dincələnlər də var. Gələn qonaqlar burada bir daha muxtar respublikamıza məxsus milli mətbəx nümunələrimizlə, yerli istehsal məhsullarımızla tanış olurlar. Həmçinin onlar təkcə təbiətimizlə, milli yeməklərimizlə tanış olmur, xalqımıza məxsus qonaqpərvərliyimizdən də məmnun qalırlar.

Bir məsələni də qeyd edək ki, haqqında bəhs etdiyimiz istehsal müəssisəsində qazanan təkcə sahibkar deyil, həm də muxtar respublika sakinləridir. O mənada ki, onlar bu məhsulları daha başqa ölkələrdən deyil, məhz muxtar respublikada fəaliyyət göstərən belə müəssisələrdən almaq imkanı əldə ediblər. Regionumuzun iqlim şəraiti burada ekoloji cəhətdən sağlam olan məhsulların yetişdirilməsinə, istehsalına imkan verir. Bu isə sağlamlığı üçün ən vacib şərtdir. Və istər "İşgəsu" massivində, istərsə də muxtar respublikanın digər yerlərində yaradılan belə ünvanlar həm də o mənada əhəmiyyət kəsb edir ki, insanlar daha istirahət üçün digər yerlərə üz tutmurlar.

Hafizə ƏLİYEVA

# Voleybol üzrə Azərbaycan çempionatının yüksək liqasının birinci dövrəsinin oyunlarına yekun vurulub

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində voleybol üzrə Azərbaycan çempionatının yüksək liqasında birinci dövrənin oyunlarının açılış mərasimi keçirilib.***

Əvvəlcə çempionatın iştirakçıları ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət ediblər.





Açılış mərasimində Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov çıxış edərək bildirib ki, ölkəmizdə idmanın inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin bu sahə üçün müəyyənləşdirdiyi siyasəti uğurla davam etdirən dövlətimizin başçısı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycan idmanı inkişafının yeni mərhələsinə qədəm qoyub. Bunun nəticəsidir ki, hər il Azərbaycanda nüfuzlu beynəlxalq idman tədbirləri keçirilir. Birinci Avropa Oyunlarının ölkəmizdə yüksək səviyyədə keçirilməsi və idmançılarımızın bütün beynəlxalq yarışlarda uğurlu çıxışları respublikamızda idmanın inkişafından xəbər verir. Bu gün Naxçıvan Muxtar Respublikasında da idmanın inkişafına xüsusi diqqət yetirilir. Regionda yaradılan idman infrastrukturu gənclərin bu sahəyə kütləvi şəkildə maraq göstərməsinə səbəb olur.

İsmayıl İsmayılov yarış iştirakçılarına uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov qeyd edib ki, muxtar respublikada idmanın inkişafı sahəsində mühüm işlər görülür, gənclərin fiziki və mənəvi hazırlığı, onların asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Muxtar respublikada olimpiya-idman komplekslərinin, idmanın müxtəlif növləri üzrə federasiyaların yaradılması gənclərin idmana olan marağını artırıb, istedadlı idmançıların yetişməsi təmin olunub. Müasir idman infrastrukturunun, eləcə də perspektivli idmançıların mövcudluğu muxtar respublikada beynəlxalq səviyyəli idman yarışlarının keçirilməsinə şərait yaradıb.

Bildirilib ki, 2002-ci ildə yaradılan Naxçıvan Muxtar Respublikasının Voleybol Federasiyası muxtar respublikada bu idman növü üzrə yeniyetmə və gənclərin idman bölmələrinə cəlbi istiqamətində əhəmiyyətli rol oynayıb, voleybol üzrə müxtəlif yaş qruplarında komandalar, o cümlədən muxtar respublikanın kişilərdən ibarət yığma komandası yaradılıb.

İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən voleybol üzrə Azərbaycan çempionatının I tur oyunlarında Azərbaycan komandaları ilə yanaşı, muxtar respublikanın da kişilərdən ibarət yığma komandası öz qüvvəsini sınayır. Bu yarışların keçirilməsi muxtar respublikada gənclərin idmana, o cümlədən voleybola olan marağının artmasında, idmana cəlbin kütləvi hal almasında və uğurlu nəticələrin əldə edilməsində mühüm rola malikdir.



Voleybol üzrə Azərbaycan çempionatının I turunun oyunları açıq elan edildikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının ifasında konsert proqramı olub.

Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirlikləri, Azərbaycan və Naxçıvan Voleybol federasiyalarının birgə təşkil etdikləri voleybol üzrə Azərbaycan çempionatının yüksək liqasında birinci dövrənin oyunlarına yekun vurulub. Son oyun günündə 3 görüş keçirilib. “Lokomotiv” komandası “Sumqayıt”ı (3:0), MOİK “Nəqliyyatçı”nı (3:2), “Neftçi” isə “Naxçıvan” komandasını üstələyib. İlk dövrənin yekun nəticəsinə əsasən “Neftçi” 15 xalla turnir cədvəlinə başçılıq edir. “Lokomotiv”in 12, MOİK-in 7 xalı var. “Naxçıvan” komandası 6 xalla 4-cü pillədə qərarlaşıb.

Qeyd edək ki, çempionatın ikinci dövrəsinin oyunlarına dekabr ayının ortalarında start veriləcək. Üçüncü dövrənin oyunları fevralda, yarımfinal və final görüşləri isə mart və aprel aylarında keçiriləcək.

**Ceyhun MƏMMƏDOV**

# Ekskursiya işinin təşkilində qabaqcıl təcrübənin tətbiqinə həsr olunmuş dəyirmi masa

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Rəsm Qalereyasında “Ekskursiya işinin təşkilində qabaqcıl təcrübənin tətbiqi” mövzusunda dəyirmi masa keçirilib.*



Muxtar respublikada fəaliyyət göstərən bir neçə muzey əməkdaşının və Naxçıvan Dövlət Universitetinin Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması ixtisasının I kurs tələbələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Qumral Məmiyeva açıb.

Dəyirmi masada Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev, Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru Nizami Rəhimov, Hüseyn Cavidin ev-muzeyinin direktoru Bəhruz Axundov, Naxçıvan Dövlət Universitetinin Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması kafedrasının müdiri Məmməd Əliyev, Naxçıvan Dövlət Rəsm Qalereyasının direktoru Hökümə Məmmədli, Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyinin direktoru Aləmzər İbrahimova və başqalarının iştirakı ilə muzey ekskursiyası işinin təşkili haqqında fikir mübadiləsi aparılıb. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamından sonra muzey işinin təşkilində canlanma müşahidə olunmaqdadır. Bu sərəncama uyğun olaraq, muzeyləri ziyarət edənlərin sayı xeyli artıb. Və bu, muzeylərdə bələdçi işinin yüksək səviyyədə təşkil edilməsi zərurəti yaradıb.

Vurğulanıb ki, bələdçi muzeyin simasıdır. Bu mənada, muzey bələdçisi muzey ziyarətçisini qarşıladığı andan muzeydən yola salana qədər onu müşayiət etməli, muzeyin yaradılma tarixi və buradakı eksponatlar haqqında müfəssəl məlumatlar verməlidir.

Tədbirdə muzey bələdçisinin xarici dil bilməsi məsələsindən də bəhs edilib. Qeyd olunub ki, muxtar respublikanın bugünkü sosial-iqtisadi, eləcə də elmi-mədəni inkişafının nəticəsi olaraq muxtar diyarımıza səyahət edən xarici turistlərin sayı ilbəil artmaqdadır. Təbii olaraq, 5 minillik şəhər mədəniyyətinə malik qədim Naxçıvana gələn əksər turistlər tariximizi, mədəniyyətimizi və ədəbiyyatımızı təbliğ edən muzeylərimizi ziyarətə üstünlük verirlər. Onlara muzeydəki eksponatlar haqqında dolğun və müfəssəl məlumatların verilməsi bu gün muzey işinin təşkili prosesində ən vacib məsələlərdəndir. Məhz bu məsələnin həlli məqsədilə muzey bələdçisinin xarici dil bilməsi vacibdir.

Dəyirmi masada muzey bələdçilərini və tələbələri maraqlandıran suallar cavablandırılıb.

Sonda Naxçıvan Dövlət Rəsm Qalereyasında nümayiş etdirilən rəsm əsərlərinə baxış olub.

**Xəbərlər şöbəsi**

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin təşkilatçılığı ilə keçirilən “Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsi – 2016”nın VII mərhələsi Şərur şəhərindəki Mədəniyyət Sarayında keçirilib.***

# Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsinin 7-ci mərhələsi başa çatıb



Aparıcılar bildiriblər ki, müsabiqənin əsas turunun birinci mərhələsinə aprel ayının 29-da Naxçıvan şəhərində start verilib. Əsasnaməyə əsasən, müsabiqənin təşkilat komitəsi və muxtar respublikanın tanınmış incəsənət xadimlərindən ibarət münsiflər heyəti yaradılıb. Müsabiqədə iştirak edənlərə yaş həddi və təhsil məhdudiyyəti qoyulmayıb. Müsabiqədə münsiflər heyətinin üzvü olan müəllimlərin öz tələbələrinə səs verməsi məhdudlaşdırılıb. Müsabiqənin gedişində konsertə qədər iştirakçılar həftədə iki dəfə olmaqla, peşəkar müəllimlərin rəhbərliyi altında ansamblla məşq ediblər. Əsas tur ayda bir dəfə olmaqla, 6 mərhələdə və hər mərhələ növbə ilə muxtar respublikanın bir rayonunda təşkil edilib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin birgə təşkilatçılığı ilə keçirilən “Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsi”nin təşkilində məqsəd milli-mənəvi sərvətlərimizi yaşatmaq, gənclərdə xalq mahnı və təsniflərinə məhəbbət oyatmaq, həmin inciləri gələcək nəsillərə ötürməkdir. Bu gün müsabiqənin sonuncu – VII mərhələsi keçirilir. Müsabiqənin şərtlərinə görə, dördüncü mərhələdən başlayaraq müsabiqənin növbəti keçiriləcək hər mərhələsində 1 nəfər olmaqla, ən az bal toplayan ifaçı müsabiqəni tərk edir. 15 nəfər ifaçı ilə başlanan müsabiqənin sonuncu turuna 10 nəfər qalıb.

Sonra müsabiqənin münsiflər heyəti tamaşaçılara təqdim edilib, əsas turun altıncı mərhələsində iştirak etmiş ifaçılar haqqında qısa məlumat verilib, onların əsas turun altı mərhələsi üzrə topladıqları ümumi ballar elan olunub. Diqqətə çatdırılıb ki, müsabiqə iştirakçılarının repertuarında xalq mahnıları ifa ediləcək.

Tarda Cəlil İsmayılovun, kamançada Nurlan Nuriyevin, udda Elməddin Axundovun, qanunda Günel Fərəcovanın, balabanda Nihad Quliyevin, nağarada Mahir Rüstəmovun müşayiəti ilə müsabiqə iştirakçıları Fuad Qədimov (Sədərək rayonu, Qaraağac kəndi, 341 bal) “Ceyran”, Təyyar Mədətli (Şahbuz rayonu, Kolanı kəndi, 344 bal) “Niyə gəlməz oldun?”, Fərman Allahverdiyev (Şərur rayonu, Tənənəm kəndi, 347 bal) “Ahu kimi”, Bəhruz Quliyev (Culfa rayonu, Saltaq kəndi, 347 bal) “Ay qara qız”, İlham Məmmədov (Kəngərli rayonu, Böyükdüz kəndi, 352 bal) “Qara tellər”, Rəşad Nəcəfov (Culfa şəhəri, 353 bal) “Gəl məni aldatma, gözəl”, Əsmər Hüseynova (Ordubad şəhəri, 357 bal) “Mən aşiq gözlərinə”, Elmar Qasımov (Naxçıvan şəhəri, 358 bal) “Aşiqəm”, Səfər Cəfərov (Babək rayonu, Nehrəm kəndi, 360 bal) “Əlində sazın”, Yusif Hacıyev (Naxçıvan şəhəri, 390 bal) “A Leyli” Azərbaycan xalq mahnılarını ifa ediblər.

İfalar başa çatdıqdan sonra iştirakçıların əsas turun VII mərhələsində topladıqları ballar elan edilib. Naxçıvan şəhərindəki Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbinin kamança ixtisası üzrə I sinif şagirdi Yusif Hacıyev ən yüksək bal toplayıb.

Müsabiqənin yekun konserti dekabr ayında Naxçıvan şəhərində keçiriləcək.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

# Naxçıvan Muxtar Respublikası üzrə 5 noyabr 2016-cı il tarixə taxıl səpininin gedişinə dair operativ məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 2430,0 | 2327,0 | 103,0 |
| 2. | Babək rayonu | 4756,0 | 3295,0 | 1461,0 |
| 3. | Ordubad rayonu | 709,0 | 546,0 | 163,0 |
| 4. | Culfa rayonu | 2725,0 | 2498,0 | 227,0 |
| 5. | Kəngərli rayonu | 2536,0 | 1578,0 | 958,0 |
| 6. | Şahbuz rayonu | 798,0 | 798,0 | - |
| 7. | Sədərək rayonu | 841,0 | 841,0 | - |
| 8. | Naxçıvan şəhəri | 429,0 | 381,0 | 48,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **15224,0** | **12264,0** | **2960,0** |

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 832